Xəzər Universiteti

# Generativ Süni İntellektdən istifadə qaydaları

## Mündəricat

1. Ümumi müddəalar ........................................................................................................3
2. Əsas anlayışlar ...........................................................................................................3
3. Əsas prinsiplər ............................................................................................................4
4. Məlumat təhlükəsizliyi və məxfilik ................................................................................4
5. Tələbələr üçün qaydalar.................................................................................................6
6. GSİ-dən istifadəyə icazə verilən hallar .........................................................................7
7. Qadağan olunan istifadə halları......................................................................................9
8. İstinad və açıqlama qaydaları .......................................................................................10
9. Akademik dürüstlüyə zidd olan hallar ..........................................................................11
10. Professor-müəllim heyəti üçün qaydalar ....................................................................12
11. Qaydalara riayət edilməməsinə görə məsuliyyət..........................................................14

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Xəzər Universitetində Generativ Süni İntellekt (GSİ) texnologiyalarından etik, məsuliyyətli və səmərəli şəkildə istifadəni tənzimləyir.

1.2. Qaydaların əsas məqsədi Generativ Süni İntellekt alətlərinin düzgün, şəffaf və məsuliyyətli tətbiqini təmin etmək, onun potensial faydalarını maksimum dərəcədə artırmaq, akademik dürüstlüyə, məxfilik və etik prinsiplərə olan riskləri minimuma endirməkdir.

1.3. Qaydalar Universitetin professor-müəllim və inzibati heyətinə, eləcə də tələbələrə şamil olunur.

1.4. Universitet Generativ Süni İntellekt alətlərinin inkişaf sürətini nəzərə alaraq bu sahədə yaranan yeni risklərə və imkanlara çevik şəkildə uyğunlaşmağı, qaydaları mütəmadi yeniləməyi öhdəsinə götürür.

## 2. Əsas anlayışlar

**2.1. Generativ süni intellekt (bundan sonra GSİ kimi qeyd ediləcək)** — verilən sual, göstəriş və ya komanda əsasında yeni məzmun (mətn, şəkil, kod, səs, video və s.) yarada bilən süni intellekt növüdür (məsələn, ChatGPT, Microsoft Copilot, Claude, Llama, Google Gemini və s.).

**2.2. Məsuliyyətli istifadə** — GSİ-dən istifadə zamanı etik, hüquqi və akademik qaydalara riayət olunmasıdır.

**2.3. İstinad/açıqlama** — GSİ alətlərindən istifadənin şəffaf şəkildə bəyan edilməsidir.

## 3. Əsas prinsiplər

Qaydalar akademik dürüstlük, müəllif hüquqları və məlumat təhlükəsizliyi prinsiplərini qorumaqla GSİ-nin yaradıcı və faydalı tətbiqini təşviq edir.

**3.1. Etik və akademik dürüstlük**

Süni intellekt texnologiyalarından istifadə zamanı inzibati və akademik heyət, tələbələr akademik dürüstlük, şəffaflıq və etibarlılıq prinsiplərinə riayət etməlidirlər. GSİ alətləri insanın yaradıcılıq, analitik düşünmə və tədqiqat potensialını əvəz etmək üçün deyil, bu qabiliyyətləri dəstəkləmək və inkişaf etdirmək məqsədilə istifadə olunmalıdır.

**3.2. Məsuliyyət və cavabdehlik**

GSİ alətlərinin istifadəsi nəticəsində yaranan səhv, yanlış məlumat, plagiata görə hüquqi və etik məsuliyyət birbaşa sənədi hazırlayan şəxsə məxsusdur.

**3.3. Şəffaflıq**

GSİ-dən istifadə olunan bütün hallarda (məsələn, elmi məqalə, tapşırıq, təqdimat və ya hesabatda) bu fakt açıq şəkildə qeyd edilməli, istifadə olunan alət və üsullar göstərilməlidir.

## 4. Məlumat təhlükəsizliyi və məxfilik

4.1. GSİ alətlərindən istifadə zamanı fərdi məlumatların qorunmasına və məxfilik prinsiplərinə riayət edilməlidir. Universitetin daxili və konfidensial məlumatları heç bir GSİ platformasına (məsələn, ChatGPT, Copilot və s.) yerləşdirilməməlidir.

4.2. GSİ alətlərindən istifadə edərkən bütün tədris və idarəetmə fəaliyyətlərində şəxsi və konfidensial məlumatların qorunması təmin olunmalıdır. Bu cür məlumatların GSİ alətlərinə ötürülməsi və ya üçüncü tərəflərlə paylaşılması yolverilməzdir. İstifadə zamanı məlumatların təhlükəsizliyi təmin edilməli və qüvvədə olan qanunvericiliyin, o cümlədən "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl olunmalıdır.

4.3. GSİ istifadəçisi məlumatların qorunmasına cavabdehdir və aşağıdakı əsas məxfilik qaydalarına riayət etməlidir:

- Şəxsi və konfidensial məlumatların qorunması və icazəsiz paylaşılmaması;
- GSİ alətlərinə yalnız ictimai və ya məxfi olmayan məlumatların daxil edilməsi;
- Məlumatlar paylaşılmadan öncə risklərin qiymətləndirilməsi;
- Universitetin daxili sənədlərində müəyyən edilmiş məlumat idarəetmə və nəzarət mexanizmlərinə əməl olunması.

4.4. Aşağıdakı məlumatların GSİ platformalarına daxil edilməsi, yüklənməsi və ya emalı qadağandır:

Şəxsi məlumatlar:

- Şəxsiyyət vəsiqəsi məlumatları (seriya, nömrə, FİN kodu);
- Əlaqə məlumatları (ünvan, telefon nömrəsi, şəxsi elektron poçt ünvanı);
- Ailə vəziyyəti, milli mənsubiyyət, dini inanc və digər fərdi xarakterli məlumatlar;
- Tibbi və sağlamlıq vəziyyəti ilə bağlı məlumatlar;
- Bank hesabı, ödəniş kartı və digər maliyyə məlumatları.

Akademik məlumatlar:

- Qiymətləndirmə nəticələri, imtahan protokolları və akademik transkriptlər;
- İmtahan və test sualları;

Universitetin daxili məlumatları:

- Qərarlar, iclas protokolları və daxili sənədlər;
- Daxili audit hesabatları və analitik materiallar;
- Maliyyə hesabatları, büdcə və xərclərə dair məlumatlar;
- Əmək müqavilələri və şəxsi işlər.

Tədqiqat məlumatları:

- Tədqiqat iştirakçılarının şəxsiyyət və əlaqə məlumatları;
- Anonimləşdirilməmiş sorğu və müsahibə nəticələri;
- Nəşr edilməmiş və ya embarqo altında olan elmi nəticələr;
- Kommersiya sirləri.

## 5. Tələbələr üçün qaydalar

5.1. Universitetdə generativ süni intellekt alətlərindən istifadə tədris prosesinin səmərəliliyini artırmaq, tələbələrin analitik və yaradıcı bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır.

5.2. GSİ-dən istifadə zamanı aşağıdakı qaydalara ciddi riayət edilməlidir:

5.2.1. GSİ alətlərindən istifadə yalnız öyrənmə, tədqiqat və fərdi inkişaf məqsədlərinə yönəlməlidir. Hər bir tələbə universitetin akademik dürüstlük standartlarına əməl etməlidir.

5.2.2. GSİ alətləri təlim və tədqiqat fəaliyyətlərində dəstək rolunu oynaya bilər, lakin təqdim olunan işlərin müəllifi tələbə özü olmalıdır. Məzmunun hazırlanması və təhlili tələbənin şəxsi bilik və düşüncələrinə əsaslanmalıdır.

5.2.3. GSİ alətlərindən istifadə tələbə tərəfindən açıq şəkildə bəyan edilməlidir. Bu barədə məlumat hazırlanmış müvafiq material və sənədlərdə (məsələn, esse, tapşırıqlar, təqdimat, layihə, vizual material və s.) göstərilməlidir. Bəyanat təqdim

edilmədikdə sənədi hazırlayan şəxs 11-ci bənddə qeyd olunmuş tədbirlərə uyğun olaraq məsuliyyətə cəlb oluna bilər.

5.2.4. GSİ tərəfindən yaradılan və ya təklif olunan məlumatlarda səhv və ya qərəz ola bilər. Tələbə təqdim etdiyi məlumatların düzgünlüyünü və etibarlılığını yoxlamağa görə məsuliyyət daşıyır.

## 6. GSİ-dən istifadəyə icazə verilən hallar

Xəzər Universiteti GSİ texnologiyalarının tədris prosesində məqsədyönlü və şəffaf şəkildə tətbiqini dəstəkləyir.

Müəllim fənn sillabusunda süni intellektdən istifadə qaydalarını ayrıca qeyd etməyibsə və ya xüsusi məhdudiyyət tətbiq olunmayıbsa, tələbələr aşağıda göstərilən məqsədlərlə GSİ alətlərindən istifadə edə bilərlər. Bu tələbənin müstəqil təfəkkürünü və yaradıcılığını əvəz etməməli, onları dəstəkləməli və inkişaf etdirməlidir.

| İstifadə məqsədi | Qısa izah | Qeyd |
|---|---|---|
| Məlumatların sistemləşdirilməsi | Toplanmış məlumat və materialların strukturlaşdırılması, mövzuların məntiqi ardıcıllıqla təşkili, alt bölmələrin müəyyənləşdirilməsi | GSİ yalnız köməkçi vasitə kimi çıxış etməlidir. |
| Fikirlərin müqayisə edilməsi və müxtəlif | Fərqli baxış bucaqlarının araşdırılması, əks | Yekun nəticə və mühakimələr tələbənin |

| | | |
|---|---|---|
| yanaşmaların öyrənilməsi | mühakimələrin öyrənilməsi və öz mövqeyinin formalaşdırılması | öz sözləri ilə əsaslandırılmalıdır. |
| Yazı üslubunun yoxlanılması, qrammatik və orfoqrafik səhvlərin aşkarlanması | Mətnin redaktəsi, qrammatik səhvlərin düzəldilməsi, cümlə quruluşunun təkmilləşdirilməsi | Məzmun və əsas fikirlər tələbənin özünə aid olmalıdır. |
| İdeya formalaşdırılması və plan hazırlanması | Mövzu seçimi, tədqiqat suallarının müəyyənləşdirilməsi, işin ümumi strukturunun planlaşdırılması | Yekun qərar və seçim tələbə tərəfindən aparılmalıdır. |
| Proqramlaşdırma və texniki dəstək | Kod sintaksisinin yoxlanması, alqoritmik strukturun təhlilinin aparılması | Tələbə kodun məntiqini anlamalı və izah edə bilməlidir. |
| Öyrənmə və peşəkar inkişafın dəstəklənməsi | Sınaq testlərinin hazırlanması, anlayışların izahı, mövzuların təkrar olunması və möhkəmləndirilməsi, məşqlər üçün | Öyrənmə prosesində səmərəli istifadə edilməlidir. |

| | | |
|---|---|---|
| | nümunələrin tərtib edilməsi | |

## 7. Qadağan olunan istifadə halları

GSİ alətlərinin istifadəsi akademik prosesi dəstəkləmək məqsədi daşısa da, texnologiyalar heç bir halda tələbənin öz intellektual əməyini, tənqidi təfəkkürünü və yaradıcılığını əvəz edə bilməz.

7.1. Akademik dürüstlüyün qorunması və ədalətli qiymətləndirmə mühitinin təmin edilməsi üçün GSİ-dən aşağıdakı hallarda istifadə qadağandır:

**7.1.1. Tapşırıqların və ya layihələrin tam şəkildə GSİ tərəfindən hazırlanması.** Tapşırıq, esse, referat, kurs işi və ya layihənin məzmununun bütövlükdə və ya əsas hissəsinin generativ süni intellekt vasitəsilə hazırlanmasına yol verilmir. GSİ-dən köməkçi vasitə kimi istifadəyə icazə verilsə də, əsas məzmun və fikirlər tələbənin öz intellektual əməyi olmalıdır.

**7.1.2. Aralıq və final imtahanlarda, eləcə də semestr ərzində keçirilən qiymətləndirmə tapşırıqlarında GSİ alətlərindən istifadə.** Tələbənin həqiqi bilik və bacarıqlarının müstəqil şəkildə qiymətləndirilməsini təmin etmək məqsədilə imtahan zamanı, o cümlədən auditoriyalarda testlər, quizlər və tapşırıqlar yerinə yetirilərkən süni intellekt alətlərindən istifadəyə icazə verilmir.

**7.1.3. GSİ tərəfindən yaradılmış məzmunun tələbə tərəfindən öz işi kimi təqdim edilməsi.** Süni intellekt alətlərinin hazırladığı mətn, kod, qrafik, cədvəl, təhlil və ya hər hansı digər məzmunun tələbənin öz məhsulu kimi təqdim edilməsi plagiat hesab edilir. Tələbə GSİ-dən istifadə etdikdə, bunu 8-ci bənddə qeyd olunan qaydalar əsasında göstərməlidir. Eyni zamanda digər müəlliflərin əsərlərini, elmi

məqalələri və ya hər hansı qorunan mənbələri süni intellekt vasitəsilə yenidən ifadə etdirmək və bu məzmunu öz işi kimi təqdim etmək akademik dürüstlüyə ziddir. GSİ yalnız söz və cümlə quruluşunu dəyişir, lakin ideyalar, arqumentlər və məlumat orijinal mənbədən götürülür.

**7.1.4. GSİ alətlərindən istifadəyə dair icazə verilən faiz.** Tələbənin süni intellekt alətləri vasitəsilə hazırladığı mətn xarakterli sənəddə generativ GSİ alətlərindən ən çoxu 25%-ə qədər istifadə etməsinə icazə verilir.

## 8. İstinad və açıqlama qaydaları

GSİ alətlərindən istifadə zamanı şəffaflıq və düzgün istinadın göstərilməsi zəruridir. İstinad və açıqlama iki formada təqdim oluna bilər:

**8.1. Mətn daxilində istinad nümunəsi**

GSİ-dən istifadə bəyanatı:

Bu işin hazırlanması zamanı yalnız strukturlaşdırma və dil redaktəsi mərhələsində *ChatGPT (OpenAI, 2025)* alətindən istifadə olunmuşdur.

Bütün ideyalar, arqumentlər və nəticələr müəllif tərəfindən müstəqil şəkildə formalaşdırılmışdır.

**8.2. Ədəbiyyat siyahısında (APA formatında) qeyd olunması**

OpenAI. (2025). *ChatGPT (Dec 2025 version)* [Large language model]. https://chat.openai.com/

Bu istinad qaydalarının məqsədi akademik dürüstlüyü qorumaq, GSİ alətlərinin düzgün istifadəsini təmin etmək və müəlliflik məsuliyyətini aydın şəkildə göstərməkdir.

## 9. Akademik dürüstlüyə zidd olan hallar

Akademik dürüstlüyə riayət edilməməsinə aşağıdakı hallar daxildir:

**9.1. Gizli və ya icazəsiz istifadə**

GSİ alətlərindən gizli, xəbərsiz və ya icazəsiz istifadə halları akademik saxtakarlıq və plagiat kimi qiymətləndirilir. Bu kateqoriyaya aşağıdakı hallar daxildir:

- GSİ alətindən istifadənin məqsədli olaraq gizlədilməsi;
- İcazə verilməyən tapşırıq zamanı GSİ köməyindən istifadə edilməsi;
- İstifadə haqqında yanlış və ya natamam məlumat verilməsi;
- GSİ tərəfindən yaradılmış məzmunun öz məhsulu kimi təqdim edilməsi;
- Müəllimin icazəsi olmadan GSİ alətlərindən istifadə edilməsi.

**9.2. İstinad və açıqlama qaydalarına əməl etməmə**

- Mətn daxilində GSİ istifadəsinin qeyd edilməməsi;
- Ədəbiyyat siyahısında GSİ alətinə istinad verilməməsi;
- GSİ istifadə bəyanatının təqdim edilməməsi və ya natamam məlumat təqdim edilməsi;
- İstifadənin həcmi və xarakterinin düzgün əks etdirilməməsi.

**9.3. Məlumatların təhrifi**

- GSİ tərəfindən hazırlanmış mövcud olmayan biblioqrafik istinadların istifadəsi;
- Həqiqi mənbələrin məzmununun GSİ vasitəsilə təhrif edilməsi;
- Statistik verilənlərin və ya tədqiqat nəticələrinin GSİ vasitəsilə təhrif edilməsi;
- GSİ tərəfindən yaradılmış məlumatların yoxlanılmadan istifadəsi.

## 10. Professor-müəllim heyəti üçün qaydalar

Müəllimlərə fənnin xüsusiyyətləri, təlim nəticələri və qiymətləndirmə metodları nəzərə alınaraq, öz tədris etdikləri fənlər üzrə süni intellekt alətlərindən istifadəyə dair qaydalar müəyyənləşdirmək səlahiyyəti verilir. Fənn səviyyəsində süni intellekt istifadəsinə dair qaydalar hazırlanarkən müəllim sillabusda aydın və əlçatan şəkildə aşağıdakı məlumatları mütləq qeyd etməlidir:

**10.1. İcazə dərəcəsinin müəyyənləşdirilməsi**

Fənn üzrə GSİ alətlərinin istifadəsinə dair qaydalar müəllim tərəfindən açıq və birmənalı şəkildə müəyyən edilməlidir. Müəllim tələbələrə fəndə GSİ-dən hansı səviyyədə, hansı məqsəd və şərtlərlə istifadə oluna biləcəyini dəqiq göstərməlidir. Müəllim GSİ alətlərindən istifadəyə görə aşağıdakı üç haldan birinə icazə verə bilər:

**10.1.1. Tam icazə verilir.**

Tədris prosesini dəstəkləmək məqsədilə, etik prinsiplərə riayət edilməklə və akademik dürüstlüyə zidd olmamaq şərti ilə GSİ alətlərindən istifadə edilməsinə icazə verilə bilər.

Tələbə tapşırığın (işin) sonunda GSİ alətlərindən necə və harada istifadə etdiyini bildirməlidir. Müəllim sillabusda GSİ alətlərindən nə üçün və necə istifadə oluna biləcəyini, həmçinin tələbənin nəyə riayət etməli olduğunu dəqiq izah etməlidir.

Nümunə: “Bu fəndə tədris prosesini dəstəkləmək məqsədilə GSİ alətlərindən istifadəyə icazə verilir. Tələbələr ideya formalaşdırma mərhələsində GSİ-dən istifadə edə bilərlər. Ancaq tələbə istifadə etdiyi bütün GSİ alətlərini və onlardan necə istifadə etdiyini 8-ci bəndə uyğun olaraq öz işində qeyd etməlidir. Tələbə həmçinin GSİ vasitəsilə əldə edilmiş nəticələrin doğruluğuna və etibarlılığına görə tam məsuliyyət daşıyır. Yekun iş mütləq surətdə tələbənin şəxsi təhlilini, tənqidi düşüncəsini və intellektual töhfəsini əks etdirməlidir.”

**10.1.2. Qismən icazə verilir.**

GSİ alətlərindən istifadəyə yalnız müəllim tərəfindən müəyyən edilmiş konkret tapşırıqlar, mərhələlər və ya məqsədlər üçün icazə verilir. Müəllim sillabusda hansı hallarda GSİ-dən istifadə oluna biləcəyini dəqiq göstərməlidir. Sillabusda qeyd edilməyən bütün digər hallarda GSİ alətlərindən istifadə qadağandır. Bu yanaşma fənnin xüsusiyyətlərinə və tələb etdiyi bacarıqların formalaşmasına uyğun olaraq tətbiq edilir.

Nümunə: "GSİ alətlərindən yalnız aşağıdakı hallarda istifadə edilə bilər: (1) layihə strukturunun qurulması mərhələsində, (2) proqram kodunun sintaksisinin yoxlanmasında, (3) mətnin qrammatik redaktəsində və s. Yazılı hesabatın məzmunu, verilənlərin təhlili və nəticələrin şərhi tam olaraq tələbə tərəfindən müstəqil hazırlanmalıdır. Təqdimatların hazırlanmasında GSİ istifadəsinə icazə verilmir."

**10.1.3. İcazə verilmir.**

GSİ alətlərindən istifadəyə bu fənn üzrə heç bir tapşırıqda və heç bir məqsədlə icazə verilmir. GSİ vasitəsilə yazılmış, redaktə edilmiş və ya hər hansı formada dəyişdirilmiş məzmunun təqdim edilməsi akademik dürüstlüyə zidd hesab edilir və müvafiq tədbirlərin görülməsi ilə nəticələnir. Müəllim bu qadağanı əsaslandırmalı və sillabusda aydın şəkildə izah etməlidir. Bu yanaşma adətən, yaradıcı fənlərdə və orijinal düşüncə tələb edən tapşırıqlarda, həmçinin bəzi bacarıqların formalaşdırılmasının vacib olduğu hallarda tətbiq edilir.

Nümunə: "Bu kursda GSİ alətlərindən istifadə tamamilə qadağandır. Fənnin əsas məqsədi tələbələrin yaradıcı və tənqidi düşüncəsini, yazı üslubunu və mətn hazırlama bacarığını inkişaf etdirməkdir. Tapşırıqların və ya esse mətnlərinin hazırlanmasında GSİ-dən istifadə akademik dürüstlüyün ciddi pozuntusu sayılır və 11-ci bənddə nəzərdə tutulmuş tədbirlər tətbiq olunur."

## 11. Qaydalara riayət edilməməsinə görə məsuliyyət

Müəllim GSİ istifadəsi qaydalarının pozulması halında tətbiq ediləcək tədbirləri sillabusda aydın şəkildə göstərməlidir. Bu tədbirlər aşağıdakı kimi müəyyənləşdirilir:

- Şifahi və ya yazılı xəbərdarlığın verilməsi;
- Tapşırığın yenidən təqdim edilməsi;
- Tapşırıq üzrə balın azaldılması və ya sıfırlanması (0 bal).